Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Onun böyük...qələmi

**İmran Qasımovun 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Onun böyük...qələmi:** İmran Qasımovun 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. K. Səmədzadə; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F.Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2018.-22 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

# İmran Qasımovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin noyabr ayında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, nasir, dramaturq, kinossenarist və publisist, ictimai xadim, Dövlət Mükafatı laureatı, Xalq yazıçısı İmran Haşım oğlu Qasımovun anadan olmasının 100 illiyi tamam olur.

İmran Qasımov yaradıcılıq axtarışları və bədii tapıntıları ilə Azərbaycan ədəbiyyatı xəzinəsinə töhfə vermiş sənətkarlardandır. O, çoxcəhətli ədəbi fəaliyyəti boyunca rəngarəng janrlarda qələmə aldığı və özünəməxsus dəst-xətti ilə seçilən əsərlərində müasirlərinin zəngin mənəviyyatını və əxlaqi keyfiyyətlərini geniş lövhələrlə dolğun əks etdirmişdir. İmran Qasımovun uğurlu səhnə təcəssümü tapmış pyesləri Azərbaycan dramaturgiyasının nailiyyətləri kimi dəyərlidir. Onun ssenariləri əsasında çəkilmiş filmlər yaddaqalan obrazları ilə diqqətəlayiq sənət nümunələri olub, kinosevərlər tərəfindən bu gün də rəğbətlə qarşılanmaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndəni rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafı və təbliğində mühüm xidmətlər göstərmiş Xalq yazıçısı İmran Qasımovun anadan olmasının 100-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram.**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Respublikası Kinomatoqrafçılar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq yazıçısı İmran Qasımovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 28 iyun 2018-ci il**

## Həyat və yaradıcılığı

***Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, istedadlı söz ustadı İmran Qasımov yazıçılıqla bərabər, həm də ədəbiyyatımızı xarici ölkələrdə yorulmadan təbliğ edən bir insan kimi tanınaraq sevilmişdi.***

Onu bu şöhrət zirvəsinə aparan yollar müxtəlif döngələrdən, dönümlərdən, quruluş və dövrün tələblərindən keçmişdir. Xəzərdən başlanğıc götürən bu çətin və şərəfli yaradıcılıq yolu Bakıdan çox uzaqlarda – Adriatik dənizinin sahillərində lövbər salmışdı. Nəticədə Azərbaycan ədəbiyyatına bir-birindən zəngin, dolğun və ədəbi cəhətdən mükəmməl əsərlər bəxş edilmişdir.

1939-cu ildə Azərbaycan Yazıçılar İttifaqının üzvü olan İmran Qasımov bu qurumda müxtəlif məsul vəzifələrdə çalışmışdı. İkinci Dünya müharibəsindən sonra Azərbaycan Yazıçılar İttifaqında dramaturgiya üzrə məsləhətçi olmuş "Literaturnıy Azerbaydjan" jurnalının baş redaktoru işləmişdi. 1961-ci ilin iyununda Azərbaycan İttifaqının katibi seçilmişdi. 1975-ci ilin yanvarından ömrünün sonunadək Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdu. İmran Qasımov həm də Azərbaycan Ədəbiyyat, İncəsənət və Memarlıq üzrə Dövlət Mükafatları Komitəsinin sədri idi.

Nasir, dramaturq, ssenarist və publisist İmran Qasımov çoxcəhətli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan ədiblərdən biridir. Hələ sağlığında müxtəlif janrlarda yaratdığı qiymətli əsərləri öz dövrünün tədqiqatına çevrilmiş, yaradıcılığı haqqında müxtəlif monoqrafiya və əsərlər qələmə alınmışdı. İmran Qasımov öz dövrünün böyük yazıçısı idi.

Təbii ki, o, həmişə sovet ədəbiyyatının nümayəndəsi kimi təqdim edilirdi. Halbuki İmran Qasımov ömrü boyu müasirlərinin mənəvi zənginliyini, əxlaqi keyfiyyətlərini əks etdirən əsərlərə imza atmışdır. Nə yazırdısa, oxunaqlı, maraqlı, təbii və səmimi alınırdı. Bu səbəbdən də İmran Qasımovun əsərləri böyük rəğbətlə oxunurdu və sevilirdi. Oxucu sarıdan bəxti gətirmiş yazıçılardan idi. Həsən Seyidbəyli ilə birlikdə yazdığı "Cəbhədən-cəbhəyə" adlı romanı ötən əsrin ən çox oxunan əsərlərindən olub.

İmran Qasımovun tərcümeyi-halına nəzər saldıqda təəssüflənirsən ki, 63 il yaşamasına baxmayaraq, dövlət müstəqilliyimizi görmədi. Onun sovet quruluşunda salnaməyə çevrilmiş yaradıcılığı müstəqillik dövründə tamam başqa cür olardı. Bir məsələdə təsəlli tapırsan ki, İmran Qasımov qüdrətli sənətkar idi, hansı quruluşda yaşamağından asılı olmayaraq yaradıcılığının üfüqləri geniş idi. İçindəki milli vüqar hissi yaradıcılığının istiqamətini düzgün təyin edirdi. O, Azərbaycan ədəbiyyatının mübariz əsgərlərindən idi.

Ötən əsrdə ədəbiyyat yaradıcılarımızın çox sarsılmaz, möhtəşəm bir ordusu var idi. Əgər onun nəsr bölməsini götürsək, burada başda Cəfər Cabbarlı olmaqla Məmməd Səid Ordubadi , Mehdi Hüseyn, Mirzə İbrahimov, Süleyman Rəhimov, Əli Vəliyev, Əbülhəsən, İlyas Əfəndiyev, Əzizə Cəfərzadə və başqaları istər klassik, istərsə də müasir ədəbiyyatın gözəl ənənələrindən bəhrələnərək yeni ruhda yazıb-yaratdılar. Bu sırada İmran Qasımov öz dəsti-xətti ilə seçilirdi.

XX əsr Azərbaycan ədəbiyyatının təməl daşını qoyanlardan biri olan İmran Qasımovun yaradıcılığında dənizin, Xəzər neftçilərinin xüsusi yeri var idi. Hətta onun qələmə aldığı bir sıra dram əsərləri sırf dənizlə bağlı olmuşdur: "Yer altından gələn səslər", "Arzu", "Yeni üfüqlər", "Xəzər neftçiləri haqqında dastan", "Dəniz cəsurları sevir" "İnsan məskən salır" və s.

Dənizin romantikliyi onun qəlbini həmişə ilhama gətirirdi. Hətta bu mövzu ilə əlaqədar ondan soruşanda İmran Qasımov belə cavab verərdi: “Mən dənizdə doğulub, dənizdə böyümüşəm və haqqında yazdığım adamlar mənə doğmadırlar. Mənə elə gəlir ki, onlarla bir oxumuşam, bir yaşa dolmuşam”. İmran Qasımovun yaradıcılığını təhlil edən ədəbi tənqidin də ilk variantlarında həmişə bir fikir vurğulanırdı ki, dəniz İmran Qasımovun əsərlərinə kükrəyən, üsyan edən, heç bir qara qüvvəyə güzəştə getməyən qüdrətli qüvvə kimi daxil olmuşdur.

İmran Qasımov qələm dostlarına, eləcə də gənc yazıçılara belə tövsiyə edərdi: “Bədii söz plakat deyil, rəngarəng rəsm əsəridir, onun emosional, intellektual təsir yolları mürəkkəb və çoxcəhətlidir”. Bəlkə də, bu səbəbə görədir ki, əlinə qələm alərkən onu düşündürən bütün mövzulara həssaslıqla, ağılla yanaşmaq İmran Qasımovun əsərlərinə yeni nəfəs, xüsusi əhval-ruhiyyə, gələcək sənət əsərləri üçün bünövrə, zəmin yaradırdı. Əlbəttə, İmran Qasımov əsrinin övladı idi. Onun yaradıcılığı sovet rejiminin ağır təzyiqləri altında çiçəkləyirdi. Lakin buna baxmayaraq yaratdığı əsərlər forma, məzmun, ideya cəhətdən vətənpərvərlik, qəhrəmanlıq, igidlik duyğuları ilə aşılanırdı. Nəsrində zamanın nəbzi duyulsa da, həyat həqiqətinə sadiqlik bütün yaradıcılığına elə bir əbədi rəng qatdı ki, həmişə solmaz qaldı. Sözü, əməli, düşüncələri ilə yaradıcılığı vəhdət təşkil edən İmran Qasımov həmişə sərrast fikir söyləməyi bacaran yazıçı-vətəndaş kimi Azərbaycan ədəbiyyatının mövqeli sənətkar zirvəsinə ucaldı.

Türk dünyasının qüdrətli söz ustadı Çingiz Aytmatov 1978-ci ildə İmran Qasımova ünvanladığı məktubunda yazmışdı: “Sənin darmaturgiyan Azərbaycan teatrının adasıdır. Sənin dramaturgiyanda qaldırılan məsələlər müasir insanın, zamanın problemləri olub, qəhrəmanların simasında gələcək tarixə vəsiqə almışdır. Sən hər barədə öz dövrünün vətəndaşısan.

Həqiqət, xeyirxahlıq, gözəllik, məhəbbət, ölüm, harmoniya kimi mövzular daim sənin yaradıcılığında aktual, günümüzlə səsləşən əhəmiyyət kəsb edir. Sənin bəşəri ədəbiyyat və incəsənət haqqında anlayışın, düşüncələrin məni həmişə heyran edir”. İmran Qasımovun Azərbaycan dramaturgiyasının inkişafında çox böyük xidməti olub. Akademik Məmməd Arif yazırdı: “İnsan məskən salır”, “Nağıl başlananda”, “Ömür elə qısadır ki”, “Dairəni genişləndirin” “Sən nə üçün yaşayırsan?” pyesləri Azərbaycan dramaturgiyasının qazandığı görkəmli nailiyyətlərdəndir”.

## Yubiley tədbirlərinin keçirilməsi

İstedadlı Xalq yazıçısı İmran Qasımovun noyabrın 25-də doğum günüdür. Yaşasaydı bu gün İmran Qasımovun 100 illik yubileyini qeyd edəcəkdik. İmran Qasımov ədəbiyyatda, kinoda, teatrda iz qoymuş, görkəmli sənətkardı, xüsusi kino təhsili almış ilk peşəkar ssenaristlərimizdəndir. Təcrübəli ssenarist, yazıçı, gözəl insan İmran Qasımovun anadan olmasının 100 illiyi münasibətilə respublikamızın hər bir təhsil ocaqlarında, məktəb, lisey, gimnaziyalarda, kitabxana və muzeylərdə müxtəlif növ tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bunun üçün geniş tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının maraqlı və yaddaqalan olması üçün ilk əvvəl F. Köçərli adına Respublika Uşaq Kitabxanasında sərgi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Sərginin nümunəsini sizlər üçün təqdim edirik:

1. Başlıq: **“İmran Qasımov-100”**
2. Kitablarının nümayişi;
3.Görkəmli şəxsiyyətlərin İmran Qasımov haqqında söylədikləri fikirlər;
4. Dövri mətbuatda çap olunmuş məqalələrin kartotekası;
5. Filmlərdən fraqmentlər.

## Görkəmli şəxsiyyətlər İmran Qasımov haqqında

İmran Qasımov istedadlı sənətkar idi, amma onun ən böyük istedadı, məncə, insanlıq istedadı idi.

**Anar,**
*Xalq yazıçısı*

Nasir, dramaturq, ssenarist və publisist İmran Qasımov çoxcəhətli yaradıcılığı ilə Azərabaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan ədiblərdən biridir. Hələ sağlığında müxtəlif janrlarda yaratdığı qiymətli əsərləri öz dövrünün tədqiqatına çevrilmiş, yaradıcılığı haqqında müxtəlif monoqrafiya və əsərlər qələmə alınmışdı. İmran Qasımov öz dövrünün böyük yazıçısı idi.

**Flora Xəlilzadə,**
*Əməkdar jurnalist*

İmran Qasımov 63 il ömür yaşayıb. Bu ömürdə zəngin yaradıcılığı ilə ədəbiyyatımızda və kino sənətimizdə mötəbər yer tutub. O, işıqlı şəxsiyyət, görkəmli yazıçı kimi əbədi olaraq mədəniyyət tariximizdə yaşayacaq.

**Savalan Fərəcov,**
*Jurnalist*

İmran Qasımov təsvir etdiyi qəhrəmanların mənəvi aləminə, qayğılarına, sevinclərinə, axtarışlarına, kəşflərinə möhkəm bağlıdır. Onların həyat yolunu, daxili təkmilləşməsini dərin həssaslıqla ardıcıl olaraq, izləyir, məhəbbətlə müşahidə edib öyrənir. Bu olduqca qiymətli keyfiyyətdir.

**Cəlal Məmmədov,**
*Tənqidçi*

# Kitab sərgisi












Sənətkarın insaniyyəti, mərhəməti, mənəvi yüksəkliyi, mədəni səviyyəsi barədə müasirləri söz deməlidir, onların xatirələrini yaşatmalıdır. Elə bu baxımdan da F. Köçərli adına Respublika Uşaq Kitabxanasında yazıçı İmran Qasımov yaradıcılığının geniş şəkildə təbliği üçün oxucu konfransının keçirilməsi məqsədəuyğundur. Kitabxanaçı yazıçının yaradıcılığı barədə tədbir iştirakçılarına bir qədər məlumat verir. İmran Qasımov istedadlı ssenarist idi. Onun ssenariləri əsasında çəkilmiş bir çox filmin əsasında azad, ilhamlı əməyə məhəbbət, eləcə də müasirlərin hiss və duyğuları dayanırdı. Milli kino sənətimizin qızıl fonduna daxil olmuş bu filmlərə indi də maraqla baxılır. “Abşeron ritmləri” (film,1970), “Axşam konserti” (film, 1948), “Azərbaycanın kurortlarında” (film, 1961), “Azərbaycanın müalicə ocaqları” (film, 1951), “Baharla birgə” (film, 1978), “Bais” (film, 1985), “Bakı arxipelaqı” (film, 1971), “Bakıdan Göy-gölədək” (film, 1947), “Bizim küçə” (film, 1961), “Böyük yol” (film, 1949), “Bu, Qum adasında olmuşdur” (film, 1962), “Cazibə qüvvəsi” (film, 1964), “Dənizi fəth edənlər” (film, 1959), “Əbədi odlar ölkəsi” (film, 1945), “Əsl dost” (film, 1959), “Əyri yolla qazanc” (film, 1960), “Gənc metallurqlar” (film, 1956) “Günəş ardınca, sağlamlıq ardınca” (film, 1971), “Hücumçu həmişə irəlidədir” (film, 1968), “Xəzər neftçiləri haqqında dastan” (film, 1953), “Xəzər nefti” (film, 1948), “Xəzərdə möcüzə” (film, 1961), “İnsan məskən salır” (film, 1967), “Kamillik” (film, 1979), “Qocaman Xəzərin gəncliyi” (film, 1972), “Quba bağlarında” (film, 1953), “Mən Bakı fəhləsiyəm” (film, 1970), “L. İ. Brejnev Bakıda” (film, 1979), “Mən Xəzər dənizçisiyəm” (film, 1961), “Mənim dostum” (film, 1963), “O geri çəkilməlidir” (film, 1966), “Odlar yurdu” (film, 1967), “Onun böyük ürəyi” (film, 1958), “Sekundantlar, rinq arxasına!” (film, 1974), “Səhər nəğməsi” (film, 1950), “Sovet Azərbaycanı” (film, 1950), “Sovet Azərbaycanının yarım əsrlik salnaməsi” (film, 1970), “Sovqat”

(film, 1942), “Şanlı partisan” (film, 1975), “Uzaq sahillərdə” (film, 1958), “Yaz harada, biz orada” (film, 1984), “Yazıçının bir günü” (film, 1971), “Yeni horizont” (film, 1940), “Yolda əhvalat” (film, 1960), “Yollar və küçələrlə” (film, 1963), “Zirvə buludu” (film, 1972) filmləri sənət nümunələri kimi qarşılanır. İmran Qasımovun dramaturgiyamızı zənginləşdirən pyeslərindən biri də “Dairəni genişləndirin” əsəridir. Müəllifin hər zaman sadiq qaldığı ideya yeni səpkidə, əsasən psixoloji planda açılmışdır. “Dairəni genişləndirin” pyesində mühüm ictimai-əxlaqi məsələlər qaldırılmış və dramaturji cəhətdən sənətkarlıqla həll edilmişdir. Əsərin qəhrəmanı Aliyə öz qısa ömrünü böyük əməllərə həsr edir, bununla da başqalarının həyatında və mübarizəsində əbədiləşir. Buna görə də onun ölümü “yaxşı adamlar ölmür” ideyasını təsdiq edən bir hadisəyə çevrilir və pyesin nikbin pafosunu gücləndirir. Aliyənin həyatının dairəsi genişlənir, bir şəxsin həyatı İnsan həyatının dairəsinə bərabərləşir.

Şübhəsiz ki, İkinci Dünya müharibəsində, faşizm üzərində qələbədə Azərbaycan xalqının da rəşadəti, verdiyi qurbanlar ədəbiyyatımızda, o cümlədən dramaturgiyamızda da əksini tapmışdır. Bu mövzuda yazılmış pyeslər dramaturgiyamızı zənginləşdirmiş, rəngarəngləşməsinə xidmət etmişdir. Bu əsərlərin içində sözsüz ki, “Dairəni genişləndirin” pyesi xüsusi yer tutur. Bu əsərdə o dövrün dramaturgiyasında əmələ gələn yeni meyillər də öz təsirini göstərmişdir. Bu cəhət müəllifin digər pyesində — “Dinsizin tövbəsi” pyesində də özünü göstərir, hətta daha qabarıq şəkildə nəzərə çarpır. Burada dramaturq müharibə mövzusu, müasir insanın mənəvi qəhrəmanlığını əks etdirməklə kifayətlənmir, müasir dünyanı məşğul edən mənəvi-əxlaqi problemlərə də toxunur. Bu da müharibənin qeyri-humanist mahiyyətini açmaq məqsədi daşıyır. “Dinsizin tövbəsi” pyesi müəyyən mənada “Dairəni genişləndirin” pyesinin davamı hesab edilə bilər. Hər iki pyesdə müəllif müharibə mövzusuna yeni bir baxış, müasir

həyatın təsviri vasitəsilə faşizm üzərində qələbənin ictimai-mənəvi mənbələrini əks etdirməyə çalışmışdır. Burada faşizm üzərində qələbəmizin əsasını dostluq və vətəndaşlıq hissləri təşkil etdiyini müəllif bədii vasitələrlə inandırıcı şəkildə göstərməyə nail olmuşdur.

Bildiyimiz kimi, müəllif vaxtilə Moskva metropoliteninin tikintisində çalışan, müharibəyə könüllü gedən, Fransada Müqavimət hərəkatında fəal iştirak edən Ceyran adlı bir azərbaycanlı qız haqqında bədii əsər yazmağı arzu edirdi. Ceyran haqqında sənədlər toplamaq üçün İ.Qasımov Fransaya yaradıcılıq səfərinə getmiş, orada bir çox müharibə iştirakçıları ilə, Müqavimət hərəkatının fəal iştirakçıları ilə görüşmüşdür. Bu fakt müəllifin "Fransız qobeleni" povestində əksini tapmışdır. Milli mənsubiyyətindən asılı olmayaraq, Ceyrana bənzəyən eyni taleli bir çox qadınlarla qarşılaşan, onların fəaliyyəti barədə söhbətləri dinləyən Ceyran haqqında heç bir sənəd əldə edə bilməsə də, öz təsəvvüründə Ceyran obrazını yaratmış olur. İnsanlar arasında oxşarlıq, bir-birinə bənzəyən talelər onu düşündürür. Beləliklə, müəllif nəsr əsərində deyil, dram əsərində Ceyran obrazını yaratmağa nail olmuşdur. Əsərdə humanizm və ədalət prinsiplərinin daşıyıcısı Ceyran obrazıdır. Ceyranın xarakteri Müqavimət hərəkatının mübarizləri sırasında möhkəmlənmişdir. Bu xarakter artıq humanist ideyaların ifadəsinə çevrilmişdir. Müəllif qəhrəmanını kəskin dramatik situasiyalardan keçirir, onu çətin sınaq qarşısında qoyur. Ceyran bu cətin sınaqdan mərdliklə çıxır və mənəvi-əxlaqi idealı əks etdirən canlı bir obraz kimi yüksəlir. Dramaturq Ceyran obrazını psixoloji cəhətdən sadələşdirməmişdir. Onu mürəkkəb hadisələr fonunda təsvir etmişdir, bununla da obrazın daxili təkamülünü göstərməyə müvəffəq olmuşdur. Buna görə də bu obraz ölüm ayağında belə

mənəvi bütövlüyün və təmizliyin zirvəsinə yüksəlir və faşizmin insanlığa zidd mahiyyətini açır.

Qeyd etmək lazımdır ki, İ.Qasımov qəhrəmanlarının həyat yolunu, daxili təkmilləşməsini, bir vətəndaş və əmək adamı kimi ruhən yüksəlməsini dərin həssaslıqla ardıcıl olaraq izləmiş, müşahidə etmişdir, obrazların böyük bir məhəbbətlə yaratmışdır. İ.Qasımovun dramaturgiyasına xas olan qiymətli keyfiyyəti bir çox ədəbiyyatşünaslar, ədəbi tənqidçilər vurğulayırlar.

İ.Qasımov öz zəngin yaradıcılığı ilə Azərbaycan dramaturgiyasında, ümumiyyətlə, Azərbaycan ədəbiyyatında, incəsənətində və mədəniyyətində mötəbər bir mövqe tutmuşdur. Görkəmli sənətkar həmişə müasirimiz olaraq qalmaqdadır, əsərləri bu günün özündə də aktuallığını saxlayaraq, tərbiyəvi əhəmiyyətə malikdir. İmran Qasımov Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan ədiblərdən biridir. O, nasir, dramaturq və sseanarist kimi zəngin ədəbi-bədii irsə malikdir.

İmran Qasımovun 100 illik yubileyi münasibətilə keçiriləcək tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirdə 1988-ci ildə "Azərnəşr" tərəfindən çap olunmuş iki cildlik "Seçilmiş əsərləri"nin müzakirəsini keçirmək nəzərdə tutulmuşdur. Kitabxanaçı yazıçı İmran Qasımovun yaradıcılığından bir qədər danışdıqdan sonra sözü tədbirdə iştirak edən qonaqlara verir.

Bildiyiniz kimi, İmran Qasımov bir çox ssenariləri müştərək yazmışdır. Belə əməkdaşlığın bəhrəsi olan məşhur "Uzaq sahillərdə" povesti iki cildlik kitabın ikinci cildində çap olunmuşdur. Bu gün biz sizinlə bu povestin geniş şəkildə müzakirəsini keçirəcəyik.

İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" povesti az zaman içində oxucularımızın hüsn-rəğbətini qazanmışdır. Povestdəki hadisələr, əsasən, Böyük Vətən

müharibəsi illərində cərəyan edir. O zaman sovet ordusu bəşəriyyət tarixində misli görünməmiş bir qəhrəmanlıqla ölkəmizi azğın faşist qəsbkarlarından təmizləyirdi. Avropa xalqlarına azadlıq və istiqlaliyyət gətirirdi. Partizan hərəkatı getdikcə güclənərək böyük bir qüvvəyə çevrilir, düşmənə arxadan zərbə endirirdi. Əsərin qəhrəmanı Mehdi Hüseynzadə müəlliflərin fantaziyasında yaranmış bir şəxsiyyət deyildir. O, Bakıda doğulub böyümüş, rəssamlıq məktəbini qurtarmış, sonra Leninqradda Xarici Dillər İnstitutunda təhsil alarkən faşist qəsbkarlara qarşı vuruşan ordu sıralarına daxil olmuşdur. Mehdi Hüseynzadə 1942-ci ildə Stalinqrad cəbhəsindəki vuruşmalardan birində yaralanaraq, düşmən mühasirəsində qalır və əsir düşməmək üçün özünü həlak etməyə təşəbbüs edir. Lakin onun gənc və möhkəm səhhəti ölümə qalib gəlir. Nəhayət, Mehdi Hüseynzadə böyük bir qəhrəmanlıqla faşistlərin əlindən xilas olub qaçır, Triest yaxınlığındakı İtaliya partizanlarına qoşulur. Bu zamandan etibarən onun bir əfsanə kimi dillərə düşən fəaliyyəti başlayır. Biz povestdə Mehdi Hüseynzadəni ilk dəfə, öz yaxın döyüş yoldaşı Vasya ilə birlikdə, əyinlərində alman libası, Triestin küçələrilə gedən görürük. Onlar faşist zabitlərinin məkanı olan "Doyçe Saldaten hayın" binasına girib, özlərilə gətirdikləri partlayıcı maddəni böyük bir məharətlə orada yerləşdirərək çıxıb gedirlər. Bir az sonra bina partlayaraq içərisindəki faşistlərlə birlikdə göyə sovrulur. Həmin bu vaxt bir nəfər naməlum şəxs Mehdiyə yaxınlaşaraq, partizanlarla görüşmək istədiyini ona bildirir. Mehdi həmin şəxsi partizanların qərargahına gətirir. Qərargah rəisi Karranti heç gözlənilmədiyi halda bu naməlum şəxsi güllələyir. Daha sonra Karranti, Mehdi tərəfindən tanınıb ifşa olunduğunu hiss edərək, onu ağır surətdə yaralayıb qaçır. Beləliklə, əhvalat getdikcə qızışaraq daha gərgin və daha mürəkkəb bir hal almağa başlayır. Povestdə oxucunun nəzər-diqqətini hər kəsdən çox cəlb edən

Mehdidir. Müəlliflər Mehdi surətini ustalıqla yarada bilmişlər. Oxucu onun taleyini böyük bir maraqla izləyir, düşdüyü çətinliklərdən necə qurtaracağını həyəcan və səbrsizliklə gözləyir. Oxucu onu sevir, hər bir vuruşdan salamat qurtarmağını arzu edir.

Mehdi Azərbaycan gənclərinə məxsus mətinlik, cəsurluq, təhlükədən qorxmamaq, lazım gəldikdə, misilsiz fədakarlıqlar göstərmək kimi nəcib sifətlərə malikdir. Əsərdə onun bir surət, bir xarakter olaraq inkişafı çox düzgün verilmişdir. Mehdi əvvəllər həddindən artıq qızğınlıq göstərir, tələsir, özünü yersiz təhlükələrə məruz qoyur. Lakin zaman keçdikcə, Mehdinin xarakteri də mübarizə alovları içində bərkiyir. O, hər şeyi ağlı və səbrlə görən, ən çətin anlarda belə ruhi müvazinətini itirməyən, gələcəyin uzaq üfüqlərini aydın surətdə seçən, özünün və özü kimi milyonlarla döyüşçünün taleyini dərindən hiss edən kamil bir qəhrəman olur. Ölümündən bir az əvvəl onun İtaliya kəndlisi Tinti ilə olan söhbəti nə qədər təsirlidir. Əsl sənəti rəssamlıq olan Mehdi əsgərin müharibədən qələbə ilə evə döndüyünü təsvir edən bir şəkil yaratmaq fikrindədi. Povestin əvvəllərində o, həmin qəhrəmanın evə qayıtmağını olduqca şən, işıqlı boyalarla rəsm etməyi düşünürdü. Sanki bu qəhrəman öz yolundakı bütün maneələri ləğv edərək qayıdırdı. Lakin povestin axırlarında Mehdi öz əsərini tamamilə başqa cür yaratmaq qərarına gəlir. Mehdi hiss edir ki, mübarizə hələ qurtarmamışdır. Sülhün bütün dünyada möhkəmlənməsi üçün hələ çox iş görmək lazımdır. Uzaq sahillərdə vuruşan Mehdi öz vətənini ən qızğın, ən incə bir məhəbbətlə sevir. Onun öz xalqına məxsus istiqanlılığı, səmimiyyəti, dostluqdakı etibarı oxucunu dərindən mütəəssir edir. Onun həlak olması oxucunun gözlərini yaşardır. Əsərdəki Vasya və Ancelika surətləri də oxucuda səmimi məhəbbət hissləri oyadır. Onlar Mehdinin ən yaxın döyüş yoldaşlarıdır. İtaliyalı Ancelika hərarətli qəlbə malik, şən, fədakar bir qızdır.

O, Mehdini sevir. Sadə, səmimi, zarafatcıl və cəsur bir döyüşçü olan gənc Vasya da Ancelikanı sevir. Bir gün təhlükəli bir tapşırığı icra etmək üçün getdikləri zaman Vasya öz qəlbini Ancelikaya açır. Bu çətin səfərdə Vasyanı ölüm qorxusu gözlədiyini bilən Ancelikanın ürəyi kövrəlir və qız gənc Vasyanın boynunu qucaqlayaraq onu öpür. Vasya isə həmin səfərdə qəhrəmanlıqla həlak olur.

Mehdi ilə Vasya və Ancelikanın dostluğu bir vəhdət təşkil edir. Sanki onlar bir ürəyin ayrı-ayrı hissələridirlər, bir yerdə doğulub böyümüşlər. Onların bu mübariz dostluğunda unudulmaz bir həyat sevgisi, vətən və azadlıq sevgisi var. Povestdə düşmən cəbhəsindən olan adamlar Amerika kəşfiyyatçısı Karranti, Uoll-stritin nümayəndəsi Stoun, gestapol rəisinin köməkçisi Şults, amerikalıların Triestdəki rezidenti Mazeli və başqalarından ibarətdir. Müəlliflər bu quldur dəstəsinin iyrənc sifətini bacarıqla açıb göstərirlər. Lakin bunların içərisində ən güclü surət, heç şübhəsiz ki, Karrantidir. Agent olan Karranti insanlıq simasını çoxdan itirmiş, hissiz, duyğusuz bir cavandır. O, öz murdar niyyətinə çatmaq üçün heç bir rəzalətdən çəkinmir. Onun üçün vicdan deyilən şey yoxdur. Müəlliflər Karrantinin yırtıcı təbiətini çox real ştrixlərlə açırlar. Karranti nə qədər hiyləgər, nə qədər xəbis bir vəhşi də olsa, yenə də, Mehdinin qarşısında məğlub olur. Müəlliflər tələyə düşmüş bu quduz canavarın ölüm səhnəsini çox gözəl və orijinal təsvir ediblər. Povestdə iki alman əsgəri – Erix və Hans da təsvir edilmişdir. Erix öz vətənində piano kökləyən, Hans isə bənna idi. Onların hər ikisi faşistlər tərəfindən zorla müharibəyə gətirilmişdir. Onlar müharibənin dəhşətləri içində faşizmin nə demək olduğunu daha yaxından görüb dərk edir, həqiqətin harada olduğunu bütün aydınlığı ilə başa düşürlər. Ona görə də, baş götürüb qaçaraq partizanların yanına gəlirlər. Müəlliflər Erix

ilə Hansın şəxsində Almaniyanın namuslu, zəhmətkeş vətəndaşlarını təsvir etmişlər.

"Uzaq sahillərdə" povesti bədii macəra əsərləri ruhunda yazılmışdır. Müəlliflər bəzən hadisələrin maraqlı və cəlbedici olmasına uyaraq, xarakterlərin dərindən açılmasına, psixoloji anlara az fikir vermişlər. Bunun nəticəsində də, yuxarıda qeyd etdiyim kimi, bəzi partizan surətləri arzu olunan dərəcədə tamamlanmamışdır. Buna baxmayaraq, "Uzaq sahillərdə" dəyərli bir əsərdir və ədəbiyyatımızda müsbət hadisədir. Əsəri oxuyarkən, İtaliyanın gözəl mənzərələri, İtaliya şəhərlərinin, kəndlərinin quruluşu, oradakı binaların arxitekturası gözlərimiz qarşısından gəlib-keçir. Müəlliflər hər bir detalın düzgün və həqiqətə uyğun olmasına diqqət etmişlər. Qəhrəman Mehdi Hüseynzadənin şərəfli həyatından bəhs edən "Uzaq sahillərdə" əsəri oxucularımıza gözəl bir hədiyyədir.

İmran Qasimov yaradıcılığı ilə daha yaxından tanış olmaq üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də ***ədəbi-bədii gecə***dir. Bu tədbir əsasən iki hissədən ibarət olur. Tədbiri təşkil edən kitabxanaçı bir ay qabaqcadan tədbirin ssenarisini hazırlayır. Çıxış etmək üçün qonaqları müəyyənləşdirir. Tədbirə dəvət olunan qonaqlar əsasən ədəbiyyat müəllimləri, yazıçı və şairlər, məktəblilər və kitabxananın daimi oxucuları olur. Yazıçının yaradıcılığı ilə bağlı səhnə gül dəstələri ilə bəzədilir. Səhnənin divarından İmran Qasımovun portreti və sitatı asılır.

*Bədii ədəbiyyat hədsiz dərəcədə həssasdır. Bəşərin sevincini və kədərini əks etdirən zərif bir aparatdır, insan qəlbinə və zəkasına güclü təsir göstərən, yol tapan qüdrətli vasitələrdən biridir.*

**İmran Qasımov,**
*Xalq yazıçısı*

**“Görkəmli, yazıçı, dramaturq, ssenarist İmran Qasımov”** adlı tədbirin ssenarisini nümunə üçün veririk.

**I aparıcı:** Yazıçı-dramaturq İmran Qasımov 1918-ci il noyabrın 25-də Bakıda ziyalı ailəsində doğulub. Çox qarışıq bir zamanda dünyaya gəlmiş İmran Qasımov açıqfikirli bir ailədə böyümüş, savadlı, məlumatlı, zəkalı insanlardan müsbət cəhətlər əxz etmişdir. Atası Həşim Qasımov ötən əsrin əvvəllərində Sankt- Peterburqda ali təhsil almış, Azərbaycanın ilk mühəndis övladlarından biri idi. Anası Mələk geniş dünyagörüşə malik, nəcib bir xanım, ilk qadın mühəndislərindən idi. Adını daşıdığı əmisi – İmran Qasımov qüdrətli sənətkarlarla – Üzeyir Hacıbəyov, Hüseynqulu Sarabski, Cəlil Məmmədquluzadə, Abbas Mirzə Şərifzadə, İsmayıl Hidayətzadə və başqa şəxsiyyətlərlə çiyin-çiyinə işləyərək Azərbaycanda musiqili teatrın yaranmasında, inkişafında böyük rol oynamışdır. Hətta milli operanın yaradılmasında, həyata keçirilməsində danılmaz əməyi ilə fərqlənən ictimai xadimlərdən biri olub. Uşaqlıq illərində musiqiyə, memarlığa, rəssamlığa, idmana böyük marağı olan İmran Qasımov hələ orta məktəbdə oxuyarkən müxtəlif ədəbi gecələrdə, müsabiqələrdə iştirak edər, mətbuatda məqalələri dərc olunardı. Gənc yaşlarından qüdrətli bəstəkar Qara Qarayev və Tofiq Quliyevlə yaxın dost olub. O, 1934-cü ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində, 1938-ci ildə Moskvada kinossenaristlər kursunda oxumuşdur. Onun ilk kino əsəri “Yeni üfüqlər”dir. Bu əsər 1940-cı ildə nümayiş etdirilmişdir. Uzun müddət Moskvada kinossenaristlər şöbəsinin rəisi, Azərbaycan kinematoqrafiya nazirinin birinci müavini, Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin birinci katibi vəzifələrində çalışmışdır.

**II aparıcı:** Yaradıcılıq yolu çoxşaxəli olan İmran Qasımov həm də istedadlı publisist idi. Ötən əsrin 70-ci illərində həm Bakıda,

həm də Moskvada müəllifin publisistik kitabları çap edilmişdir. İmran Qasımov ilk növbədə Azərbaycanın füsunkar təbiətindən, qəhrəman övladlarından, neftçilərdən, söz və sənət adamlarından yazırdı. Mövzu və qəhrəmanlarından asılı olmayaraq o, özünəməxsus üslub və vasitələrdən, bədii detallardan ustalıqla istifadə edirdi. Sanki İmran Qasımov hər kəsin mənəvi aləmini olduğu kimi işıqlandırmaq üçün qələmini projektor kimi işə salırdı. İnsan səadəti uğrunda mübarizədə bütün bəşəriyyət üçün parlaq əsərlər yaratmaq həqiqətən müəllifinə əbədiyaşarlıq gətirib.

**I aparıcı:** İmran Qasımov, bəlkə də, yeganə qələm sahibi olub ki, öz publisistikasına sonradan yazıçı-dramaturq kimi müraciət edərək pyes, hekayə, povest, roman qələmə alıb. Yəni, onun qəhrəmanlarının əksəriyyəti həyatdan götürülmüş obrazlar olublar. Bu üslub da ədibin yaradıcılığına təbiilik, axıcılıq, bir sözlə həyatın bütün təzadlarını bəxş edib. Milli özünəməxsusluq, xəlqilik, bəşərilik bu yazıçının əksər əsərlərinin səciyyəvi xüsusiyyətləridir. Elə İmran Qasımov yaradıcılığını da sevdirən başlıca amillər bu məziyyət olub. Hər bir fərdi keyfiyyəti bədii səviyyəyə qaldıraraq mənəvi aləmin müsbət daşıyıcısı kimi təqdim etmək ustalıqdır. İmran Qasımov bütün yaradıcılığı boyu bu ustalığından bəhrələnmişdi. İmran Qasımovun rəngarəng yaradıcılıq aləminə epik-lirik, dramatik-kinematoqrafiq əsərlərinə göz gəzdirdikcə, burada söylənəsi fikirlər qarşısında geniş meydan açılır. O, gənc vaxtlarından maraqlı ədəbi-bədii nümunələr yaratmağa başlayıb. 22 yaşında Bakı neftçilərinin həyatından bəhs edən “Yeni horizont” bədii filminin ssenarisini yazıb.

**II aparıcı:** Ömrünün baharından repressiyaların çox üzünü görmüş İmran Qasımov Yazıçılar İttifaqına rəhbərlik edəndə qalmaqallı, qorxulu mühitin sifəti xeyli dəyişmişdi. Repressiya qurbanlarının əksəriyyəti bəraət almışdı. Ölkədə yaradıcılıq

şəraiti formalaşırdı. Azərbaycana Heydər Əliyev kimi əsl ədəbiyyat, sənət himayədarı rəhbərlik edirdi. Milli ruhlu insanları repressiyanın qara caynaqlarından xilas edən ulu öndər yazıçı İmran Qasımovu çox dəyərləndirirdi. Əməkdar incəsənət xadimi adına layiq görülmüş İmran Qasımov Azərbaycan Dövlət mükafatı laureatı idi. Xalq yazıçısı fəxri adını almış, sinəsi "Lenin", "Qırmızı Əmək Bayrağı", "Şərəf" nişanı ordenləri və medalları ilə bəzənmişdi. Bütün bunların hamısını İmran Qasımov məhz ümummilli lider Heydər Əliyevin sayəsində almışdı. Bu, danılmaz faktdır ki, 37-ci ilin qanlı köynəyindən qurtulanların sonrakı xilaskarı məhz Heydər Əliyev idi.

Tədbirin sonunda qonaqlar "Uzaq sahillərdə" filminə tamaşa edirlər.

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Kitablar***

Ölkələr və insanlar. - Bakı : Azərnəşr, 2009. - 240 s. : foto.

Uzaq sahillərdə. – Bakı : Gənclik, 1974. – 310 s. – kiril qafikası ilə

***Kitablarda***

Uzaq sahillərdə : povestdən parka // Külək qarı səpələr. – Bakı : Poeziya günü nəşrlər evi, 210. – S. 254-278.

***Haqqında***

***Dövri mətbuatda***

**İmran Qasımovun 100** illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (28 iyun 2018-ci il) // Respublika. - 2018. - 29 iyun. - № 140. - S. 1.

**Abbaslı T.** Dövrün fövqündəkilərdən : siyasi qalmaqallı bir zamanın həm də böyük EKRAN yazıçısı İmran Qasımov // Mədəniyyət. - 2017. - 24 noyabr. - № 92. - S. 12.

**Əhmədalılar T.** Onun böyük... qələmi // Mədəniyyət. – 2013. - 27 noyabr. – S.15.

**Fərəcov S.** Görkəmli yazıçı, dramaturq, ssenarist: İmran Qasımov // Mədəniyyət. – 2010. – 24 noyabr. – S.14.

**Xəlilzadə F.** Xəzərdən “Uzaq sahillər”ədək gedən yol // Azərbaycan. – 2008. – 2 aprel.

**Kəlbiyeva A.** Böyük yazıçı : İmran Qasımov haqqında // Mədəni Maarif. - 2011. - № 9. - S. 22-23.

**Tahir.** Qələm “Mixaylo”su - ədəbi “kontr-kəşfiyyatçı”, qurucu-yaradıcı İmran Qasımov // Mədəniyyət. – 2011. – 30 noyabr. – S.11.

# Onun böyük...qələmi

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 53
Çapa imzalanmışdır: 15.10.2018
Tirajı:100
Pulsuz